

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ *qapısı*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 228 (21.380)

*20 noyabr 2015-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Yeni Azərbaycan Partiyasının yaradılmasının 23-cü ildönümü qeyd edilir

***Noyabrın 19-da Yeni Azərbaycan Partiyası (YAP) Şərur Rayon Təşkilatında partiyanın yaradılmasının ildönümü ilə əlaqədar keçirilən yığıncaqda təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev məruzə edərək Yeni Azərbaycan Partiyasının ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatındakı rolundan danışmışdır.***

Bildirilmişdir ki, 1992-ci il noyabrın 21-də ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılan Yeni Azərbaycan Partiyası ilk günlərdən özünü milli birliyin, vətəndaş həmrəyliyinin, sabitlik və tərəqqinin başlıca təminatçısı kimi göstərməklə xalqın dərin inamını qazanmışdır. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan görkəmli dövlət xadimi Heydər Əliyev ölkəmizi fəlakətlər girdabından xilas etmiş, Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirmişdir. Məhz bu inkişaf strategiyası nəticəsində Azərbaycan artıq dünyanın nüfuzlu ölkələrindən birinə çevrilmişdir.

Vurğulanmışdır ki, Heydər Əliyev dühasının Yeni Azərbaycan Partiyasının proqramında ifadəsini tapmış dövlətçilik strategiyası son 23 ildə bütün istiqamətlərdə dövlət müstəqilliyinin qorunub saxlanması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə söykənmişdir. YAP-ın cəmiyyətdə ölkəni idarə etməyə qadir alternativsiz siyasi qüvvə kimi qəbul olunması da məhz partiyanın Heydər Əliyev ideyalarına söykənməsi ilə bağlıdır.

Qeyd edilmişdir ki, 2003-cü ildən ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən, Sədri olduğu Yeni Azərbaycan Partiyasının cəmiyyətdəki mövqelərini daha da möhkəmləndirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin uğurlarını şərtləndirən ən mühüm məqamlardan biri də ölkə rəhbərinin kifayət qədər təkmil siyasi təlimə – ulu öndər Heydər Əliyevin milli dövlətçilik fəlsəfəsinə istinad etməsidir. Bu təlim Azərbaycanın müstəqilliyinə, onun əbədi, dönməz xarakter daşımasına təminat vermişdir. Aparılan uğurlu siyasətin nəticəsində respublikamızda iqtisadi potensialın hərtərəfli inkişafı təmin olunmuş, sahibkarlıq fəaliyyəti daha da genişləndirilmiş, yeni istehsal və emal müəssisələrinin işə salınması, yoxsulluğun azaldılması və yüksək məşğulluq səviyyəsinin təmin edilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir.

Azərbaycanın bütün bölgələrini əhatə edən iqtisadi və sosial islahatların Naxçıvan Muxtar Respublikasının da sürətli inkişafına səbəb olduğunu deyən Əmir Babayev bildirmişdir ki, həyata keçirilən bu siyasət iqtidar partiyası kimi YAP-ın nüfuzunu daha da artırmışdır.

"Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının tərkibində 163 ilk partiya təşkilatı fəaliyyət göstərir", – deyən təşkilat sədri əlavə etmişdir ki, rayon təşkilatı öz sıralarında 10 min 338 nəfər partiya üzvünü birləşdirir. Onlardan 2 min 970 nəfəri qadınlar, 3 min 518 nəfəri isə gənclərdir. 2015-ci ilin 10 ayında partiya sıralarına qəbul olanların sayı 111 nəfər olmuşdur ki, onların da 87-si gənclər, 46 nəfəri qadınlardır. Partiya üzvləri ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strategiyanın muxtar respublikada uğurla həyata keçirilməsində fəallıq göstərirlər.

Məruzə ətrafında YAP Şərur Rayon Təşkilatı İdarə Heyətinin üzvləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Nüsrət Həsənov və Ünbülbanu Musayeva, Maxta kənd tam orta məktəbi ilk partiya təşkilatının sədri Musa Şirəliyev, Aralıq kənd ərazi ilk partiya təşkilatının sədri Cəfər Muxtarov, partiya veteranı Vidadi Süleymanov və başqaları çıxış etmişlər.

**Elman MƏMMƏDOV**

*Sədərək rayonunda da Yeni Azərbaycan Partiyasının yaradılmasının 23-cü ildönümü münasibətilə tədbir keçirilib.*



Tədbirdə Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov çıxış edib. Təşkilat sədri Yeni Azərbaycan Partiyasının yaradılmasının Azərbaycanın müasir siyasi tarixində mühüm hadisə olduğunu bildirərək deyib ki, bu gün əldə etdiyimiz bütün uğurların təməlində ümummilli liderimiz Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrikliyi dayanır. Ulu öndərin siyasi kursunu uğurla davam etdirən dövlət başçısı cənab İlham Əliyev sosial-iqtisadi yüksəlişə nail olmaqla qlobal dünyada Azərbaycanı müasir və inkişaf etmiş dövlətə çevirib.

Qeyd edilib ki, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sıralarına bu ilin 10 ayında 54 nəfər qoşulub. Gənclər, ziyalılar təşkilatda xüsusi yer tuturlar. Onlar rayonun ictimai-siyasi, mədəni həyatında, quruculuq tədbirlərində fəal iştirak edirlər.

Tədbirdə Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Vüsalə Əliyeva, Sədərək kənd 1 nömrəli tam orta məktəb ilk partiya təşkilatının sədri Gülnarə Hüseynova, təşkilatın Heydər Əliyev adına Gənclər Birliyinin üzvü Əjdər Məmmədhəsənov, gənc fəallardan İlkin Əhmədov çıxış ediblər.

Çıxışlarda bildirilib ki, Yeni Azərbaycan Partiyası bu gün cəmiyyətdə çox böyük nüfuza malikdir. Bu da onunla bağlıdır ki, partiyanın əsas vəzifələri olan dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi Azərbaycan xalqının mənafelərinə bütünlüklə cavab verir.

Sonda Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunmuş bir qrup gəncə üzvlük vəsiqələri təqdim edilib.

* * *

*Yeni Azərbaycan Partiyasının yaradılmasının 23-cü ildönümü Şahbuz rayonunda da qeyd olunub.*

Bu münasibətlə keçirilən tədbirdə Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Rizvan Məmmədov məruzə ilə çıxış edib. Bildirilib ki, ötən 23 il müddətində ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının fəaliyyətinə nəzər saldıqda, qazanılan uğurların fonunda ulu öndər Heydər Əliyevin vaxtilə əminliklə söylədiyi ***"Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır"*** fikrini xatırlayırıq. 23 illik fəaliyyəti dövründə sıralarını kəmiyyət və keyfiyyət baxımından daha da möhkəmləndirən Yeni Azərbaycan Partiyası öz avanqard yolu ilə xalqın dəstəyini və məhəbbətini qazanıb. Ölkəmizin uçuruma sürükləndiyi bir ərəfədə yaradılması həyati zərurətdən doğan partiya 23 il ərzində xalqın partiyası olduğunu təsdiq edib.

Vurğulanıb ki, bu gün Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı 3500 nəfər partiya üzvünü öz ətrafında birləşdirir. Onlardan 1462 nəfəri gənclər, 1218 nəfəri isə qadınlardır. Partiyanın 9 nəfər idarə heyəti, 21 nəfər şura üzvü və 9 nəfərdən ibarət Heydər Əliyev adına Gənclər Birliyi fəaliyyət göstərir.

Bütün partiya üzvləri rayonun ictimai-siyasi həyatında yaxından iştirak edirlər. Bu gün digər bölgələrimiz kimi, Şahbuz da müasir Azərbaycan rayonunun bir nümunəsidir. Rayonun gözəlliklər diyarına çevrilməsində, bütün sahələrdə inkişafın təmin olunmasında partiya üzvləri fəallıqları ilə seçilirlər. Onlar qürur duyurlar ki, təmsil olunduqları partiyanın Sədri, ölkə rəhbəri cənab İlham Əliyevin yorulmaz fəaliyyəti nəticəsində Şahbuz rayonunun da bütün idarə, müəssisə və təşkilatları üçün müasir memarlıq üslubunda binalar inşa olunub. Rayon İcra Hakimiyyəti, Maliyyə, Təhsil, Polis şöbələri, Baytarlıq və Rabitə idarələri, Dövlət Sosial Müdafiə Fondunun Şahbuz Rayon Şöbəsi, Əhalinin Sosial Müdafiəsi, Gigiyena və Epidemiologiya mərkəzləri, Tarix-Diyarşünaslıq Muzeyi, avtovağzal, "Araz" kinoteatrı, Mərkəzləşdirilmiş Kitabxana Sistemi, Uşaq Kitabxanası və digər təşkilatların fəaliyyət göstərdikləri yeni binalarda əməkdaşlar üçün hərtərəfli iş şəraiti yaradılıb.

Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı üçün də müasir tələblərə cavab verən bina inşa olunub. Yeni tikilən kənd mərkəzlərində ilk partiya təşkilatlarına otaqlar ayrılıb, hərtərəfli iş şəraiti yaradılıb.

Məruzə ətrafında partiya fəalları Təmleyxa Cəbiyevin, Səadət Abdinovanın və başqalarının çıxışları olub.

Sonda bir qrup gəncə üzvlük vəsiqəsi təqdim edilib.

**Xəbərlər şöbəsi**

## 2015-ci ilin yanvar-oktyabr aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada cari ilin yanvar-oktyabr aylarında 1 milyard 924 milyon 326 min manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2014-cü ilin yanvar-oktyabr ayları ilə müqayisədə 3,8 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2014-cü ilin yanvar-oktyabr ayları ilə müqayisədə 5,4 faiz artaraq 4356,6 manata çatmışdır.

* * *

Muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 762 milyon 663 min manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricini 1,4 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində cari ilin yanvar-oktyabr ayları ərzində muxtar respublikada əsas kapitala 781 milyon 890 min manat həcmində investisiya yönəldilmişdir. Bu da bir il öncəki göstəricidən 1,3 faiz çoxdur. Əsas kapitala yönəldilmiş investisiyaların 689 milyon 762 min manatı və ya 88,2 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2015-ci ilin yanvar-oktyabr aylarında informasiya və rabitə xidmətlərinin həcmi 40 milyon 475 min manat olmuşdur ki, bu da 2014-cü ilin yanvar-oktyabr ayları ilə müqayisədə 1,9 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 34 milyon 286 min manat olmaqla bir il öncəki göstəricini 2 faiz üstələmişdir.

* * *

Cari ilin yanvar-oktyabr ayları ərzində 327 milyon 267 min manatdan artıq həcmdə kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricini 9,5 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublikada diri çəkidə 18,3 min ton ət, 74,2 min ton süd istehsal edilmiş, 2014-cü ilin yanvar-oktyabr ayları ilə müqayisədə ət istehsalı 13 faiz, süd istehsalı 1,9 faiz artmışdır.

* * *

Əhali gəlirlərinin artımı davam edir. Cari ilin yanvar-oktyabr aylarında muxtar respublikada əhalinin gəlirləri 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz artaraq 1 milyard 411 milyon 407 min manat, onun hər bir nəfərə düşən həcmi isə 2,5 faiz yüksələrək 3195,4 manat təşkil etmişdir.

* * *

Qeyd olunan dövrdə muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 394 manat təşkil etmiş və bu göstərici əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,5 faiz artmışdır.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 noyabr 2015-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 46609-a çatmışdır ki, bunun da 42069-u və ya 90,3 faizi aktiv hesablardır. 2015-ci ilin yanvar-oktyabr aylarında açılmış 8380 bank hesabının 8326-sı və ya 99,4 faizi aktiv hesablar olmuşdur.

Cari ilin yanvar-oktyabr aylarında muxtar respublikada 147 POS-terminal quraşdırılmış və bu göstərici 1 noyabr 2015-ci il tarixə 1014-ə çatdırılmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə şərait yaratmışdır. Cari ilin yanvar-oktyabr aylarında muxtar respublikada 372 milyon Amerika Birləşmiş Ştatları dollarından artıq həcmdə xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 6,4 faiz artaraq 322 milyon Amerika Birləşmiş Ştatları dollarına, idxalın həcmi isə 45,3 faiz azalaraq 51 milyon Amerika Birləşmiş Ştatları dollarına yaxın olmuşdur. Xarici ticarət üzrə 271 milyon Amerika Birləşmiş Ştatları dollarından artıq həcmdə müsbət saldo yaranmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2015-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 61945,2 min manat məbləğində kreditlər verilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 39,4 faiz çoxdur.

* * *

2015-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 5002 min manat olmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 92,4 min manat və ya 1,9 faiz çoxdur.

* * *

Cari ilin yanvar-oktyabr aylarında muxtar respublikaya 313 min 76 nəfər turist gəlmişdir ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz və ya 7330 nəfər çoxdur.

* * *

1 oktyabr 2015-ci il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 4003 nəfər və ya 0,9 faiz artaraq 443164 nəfər təşkil etmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

# Naxçıvan: blokadadan tərəqqiyə

***Azərbaycanın ən yeni tarixinə əlamətdar hadisə kimi daxil olmuş 2015-ci ilin 1 noyabr seçkiləri ölkəni dinamik inkişaf yoluna çıxaran, müstəqilliyimizin qarantı olan Heydər Əliyev siyasi kursunun alternativsizliyini bir daha sübuta yetirmişdir. Tamamilə azad, demokratik və şəffaf şəraitdə, yüksək seçici fəallığı ilə keçirilmiş parlament seçkiləri uğurla başa çatmışdır. Noyabrın 1-də həm də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər keçirilmişdir. 45 seçki dairəsi üzrə keçirilən seçkilərdə seçici siyahılarına daxil edilmiş 268 min 463 nəfərdən 205 min 166 nəfəri, yəni seçicilərin 76,4 faizi iştirak etmişdir. Seçkilərin keçirilməsi və səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı qanun pozuntularına yol verilməmiş, aşkarlıq təmin edilmişdir.***



Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə təqdim edilmiş sənədlərin təhlili nəticəsində Ali Məclisə keçirilmiş seçkilərin qanunvericiliyə uyğun olduğu, demokratik, aşkarlıq və hər kəsin öz iradəsini sərbəst ifadə etdiyi şəraitdə keçirildiyi müəyyənləşdirilmişdir. Ona görə də Ali Məhkəmənin Rəyasət Heyəti konstitusiya icraatı qaydasında işə baxaraq, 2015-ci il 10 noyabr tarixli Qərarı ilə seçkilərin nəticələrini bütövlükdə təsdiq etmişdir. Noyabrın 17-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası keçirilmişdir.

Əvvəla onu qeyd edək ki, bu sessiya Azərbaycan dövlətçiliyi üçün çox əhəmiyyətli bir gündə, Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günündə keçirilmişdir. 25 il bundan öncə, 1990-cı il noyabrın 17-də ulu öndərimiz Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında müstəqil dövlət quruculuğu istiqamətində tarixi qərarlar qəbul olunmuş, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilmişdir. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasının məhz noyabrın 17-də keçirilməsi ümummilli liderimiz Heydər Əliyevin yoluna, dövlətçiliyə sədaqətin, Azərbaycanın müstəqilliyinin daha da möhkəmləndirilməsi istəyinin nəticəsidir.

Sessiyada hörmətli Vasif Talıbovun yenidən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi təkcə muxtar respublika Ali Məclisinin 45 deputatının deyil, bütün naxçıvanlıların seçimidir. Sessiyada çıxış edən deputatların vurğuladıqları kimi, 1995-ci ildən sonra muxtar respublikada sənaye, kənd təsərrüfatı, təhsil, mədəniyyət, səhiyyə sahələri inkişaf etdirilmiş, Naxçıvan iqtisadi inkişafın yeni mərhələsinə qədəm qoymuş, ordu quruculuğuna ciddi diqqət yetirilmişdir. Ötən dövrdə milli dəyərlərin qorunub yaşadılması, tarixi abidələrin bərpası istiqamətində ardıcıl tədbirlər görülmüş, Naxçıvanın tarixi, xüsusilə 5 minillik şəhər mədəniyyəti sistemli şəkildə öyrənilmişdir. Ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının uğurla davam etdirilməsi Naxçıvanı sürətli inkişaf yoluna çıxarmış, yeni-yeni uğurlara imza atılmışdır.

Hələ 1995-ci ildə qarşıya qoyulmuş məqsəd, müəyyənləşdirilmiş strateji hədəflər blokada şəraitində belə, inkişafa nail olmağın mümkünlüyünü ortaya qoymuşdur. Muxtar respublika əhalisinin inamının özünə qaytarılması, Naxçıvanın daxili potensialının hərəkətə gətirilməsi, cəmiyyətin bütün təbəqələrinin qədim diyarımızın inkişafı üçün həyata keçirilən tədbirlərə cəlb olunması, yerli xammala əsaslanan istehsal müəssisələrinin yaradılması, bütün sahələrin tərəqqisi məqsədilə ixtisaslı kadrların yetişdirilməsi, ərzaq və enerji təhlükəsizliyinin təmin edilməsi, genişmiqyaslı quruculuq işlərinin aparılması, yurdumuzun sabit və təhlükəsiz bir regiona çevrilməsi, insanların rifah halının yaxşılaşdırılması inkişafa gedən yolda qarşıya qoyulan əsas məqsədlərdən idi. Çox qısa bir zamanda bütün bunlara nail olunmuşdur. İnfrastrukturu çağdaş dünya standartları səviyyəsində bütünlüklə yeniləşdirilən, işıq, qaz, su və digər kommunal problemləri tamamilə aradan qaldırılan Naxçıvan öz tarixinin heç bir dövründə belə inkişaf etməmiş, bu qədər güclü olmamışdır. Ümumi daxili məhsul istehsalı dəfələrlə artan, kəndlərinin əksəriyyəti abadlaşdırılan, əhalisinin bütün sosial ehtiyacları, əksər məhsullara olan tələbatı daxili imkanlar hesabına ödənilən, beynəlxalq tədbirlərin və idman yarışlarının keçirildiyi bir regiona çevrilən, mükəmməl turizm infrastrukturu yaradılan, ildə 350-400 min turisti qəbul edən, yeni sənaye müəssisələri qurulan, ixrac imkanları artan müasir Naxçıvan daha möhtəşəm uğurlara, daha sanballı tarixi qələbələrə doğru addımlayır. Bu, beş min il əvvəl şəhər mədəniyyətini yaradan ulu bir diyarın böyük tarix yaradan zəfər yoludur.

Qeyd etdiyimiz kimi, 1995-ci ildən inkişaf və tərəqqi yoluna çıxan Naxçıvanda 1995-2000-ci illər dağılmış infrastrukturun, iqtisadiyyatın bərpası, bugünkü müasir Naxçıvanın təməlinin qoyulduğu, 2000-2005-ci illər quruculuq işlərinin davamı, 2005-2010-cu illər ərzaq və enerji təhlükəsizliyinin tam təmin edildiyi, muxtar respublikanın yeni inkişaf mərhələsinə qədəm qoyduğu, 2010-2015-ci illər isə daha möhtəşəm uğurların qazanıldığı dövrdür. Təkcə son 5 ilə nəzər salsaq, muxtar respublikanın necə böyük bir inkişaf yolu keçdiyinin şahidi olarıq. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında Ali Məclis Sədrinin qeyd etdiyi kimi: ***“Ötən beş ildə nəzərdə tutulan proqramlar icra olunmuş, yeni infrastruktur, istehsal və emal sahələri, sosial-mədəni obyektlər yaradılmış, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi üçün tədbirlər görülmüşdür”.*** Son beş ildə muxtar respublikamızda ümumi daxili məhsul istehsalı 1,6, hər bir nəfərə düşən ümumi daxili məhsul istehsalı 1,5, sənaye məhsulunun ümumi həcmi 2,4, əsas kapitala yönəldilən investisiyalar 1,6, kənd təsərrüfatının ümumi məhsulu 1,3, informasiya və rabitə xidmətlərinin həcmi 1,1, xarici ticarət dövriyyəsi 1,4, əhalinin gəlirləri 1,4, hər bir nəfərə düşən gəlirlər 1,3, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 1,3 dəfə artmışdır. Oxucular yəqin ki, nəzərdən qaçırmadılar – bütün bu artımlar faizlərlə deyil, dəfələrlə olmuşdur. Bu dövrdə muxtar respublikamızda 110 təhsil, 74 səhiyyə ocağı, 144 mədəniyyət müəssisəsi üçün binalar, 145 inzibati bina tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilmiş, 384 istehsal və xidmət sahəsi yaradılmışdır.

Elm, ədəbiyyat və mədəniyyət xadimlərinin yubileylərinin keçirilməsi, milli dəyərlərin yaşadılması və xalq yaradıcılığının dirçəldilməsi istiqamətində görülən işlər də son beş ildə ölkəmizin elmi, ədəbi və mədəni hadisələrindəndir. Tarixi abidələrin bərpasının davam etdirilməsi, yeni arxeoloji abidələrin tapılması, tədqiqat işlərinin genişləndirilməsi tariximizin öyrənilməsi və təbliği baxımından mühüm əhəmiyyət daşıyır. Naxçıvanın tarixi, mədəniyyəti, ekologiyası, təbii sərvətləri barədə, xalq yaradıcılığından bəhs edən çoxsaylı kitabların nəşri də bu dövrün uğurlarındandır.

Bəli, son 20 ildə aparılan sistemli tədbirlər müasir Naxçıvanın inkişafını şərtləndirmişdir. Naxçıvan qazandığı uğurların hesabatını vermiş, qarşıda yeni vəzifələr müəyyənləşdirilmişdir. Naxçıvanda tikilənlər, qurulanlar, yaradılanlar dünya standartları səviyyəsindədir. Ancaq Naxçıvan da öz standartlarını yaratmışdır. Məzmun və mahiyyətcə yeni obyektlər olan kənd və xidmət mərkəzləri nümunəsi dünyada tətbiq oluna biləcək Naxçıvan modelidir. Ümumtəhsil məktəbləri ilə muzeylər arasında interaktiv əlaqələrin yaradılması, elm, ali və orta ixtisas təhsili müəssisələrinin elmi dərəcəli əməkdaşlarının ayda bir dəfə orta məktəblərdə nümunəvi dərs keçməsi, muzeylərə kollektiv gedişlərin təşkili, ali və orta ixtisas məktəblərindəki ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilk dəfə Naxçıvanda tətbiq olunmuşdur.

Yurdumuzun abad, təmiz, səliqəli saxlanılması, muxtar respublikamızın inkişafı üçün hər kəsin fədakarlıqla çalışması son illər yaranan gözəl ənənələrdəndir.

Bütün bunlar qazanılan uğurların yalnız görünən tərəfləridir. Naxçıvanın mənəvi qazancları maddi qazanclarından qat-qat çoxdur. Muxtar respublikada aparılan quruculuq işlərinə paralel olaraq həm də yeni cəmiyyət qurulmuşdur. İnsanların şüurunda inqilabi dəyişiklik edilmiş, müasir düşüncəli, vətənpərvər gənclik yetişdirilmişdir. Həyata keçirilən tədbirlər sayəsində insanlarda sahiblik hissi formalaşdırılmışdır. İndi tikilənlərə, qurulanlara keçmiş Sovetlər Birliyində olduğu kimi, dağıdıcı münasibət yoxdur. Hər bir naxçıvanlı tikilən, qurulan hər bir binaya, salınan parka, yola, müasirləşdirilən küçəyə, yaşadığı binaya milli sərvəti kimi baxır. Hamı bilir ki, bu gün yaradılanları gələcək nəsillərə çatdırmaq kimi bir məsuliyyəti var.

Bir vaxtlar əzəmətli keçmişini yalnız tarixi abidələri ilə xatırladan Naxçıvan bu gün öz inkişafına görə qibtə olunan bir diyara çevrilmişdir. Qədim diyarımız tarixini qorumaqla bərabər, müasirliyi ilə də diqqəti cəlb edir. Muxtar respublikamız bütün sahələrdə nailiyyətlər qazanaraq gündən-günə dəyişir, daha da müasirləşir. Məşhur Naxçıvan memarlıq məktəbinin milli ənənələri ilə müasir şəhərsalma mədəniyyətinin uzlaşdırıldığı muxtar respublikada genişmiqyaslı tikinti-quruculuq işləri sürətlə davam etdirilir. Naxçıvanın ən ucqar dağ kəndlərinin belə, fasiləsiz təbii qaz və elektrik enerjisi ilə təmin olunması adi həyat reallığına çevrilmişdir. Bu gün naxçıvanlılar ümumən regionda çox az-az təsadüf edilən lüks evlər tikir, ən bahalı avtomobilləri alıb muxtar respublikaya gətirirlər. Bu faktlar əhalinin rifah halının sürətlə yaxşılaşdırıldığının göstəricisidir. Muxtar respublikanın keçdiyi inkişaf yolu, – ***“Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin”***, – deyən ulu öndər Heydər Əliyevin ideyalarına dərin sədaqətin təcəssümüdür.

Bu inkişaf və tərəqqi dövrünün, qazanılan uğurların davamlı olması üçün seçilən yolun davam etdirilməsi gərəkdir. Odur ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında qəbul olunan qərarlar bütün naxçıvanlıların seçimidir və daha parlaq gələcəyimizə xidmət edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları Vətən sevgisi üzərində ucaldılan, əmin-amanlıq şəraitində yaşadığımız, inkişaf və tərəqqinin davamlı xarakter daşıdığı, abadlıq-quruculuq işlərinin hər gün daha da genişləndirildiyi, ləyaqətli, vətənpərvər gəncliyin yetişdirildiyi, iradənin, cəsarətin bütün çətinliklərə qalib gəldiyi, ordusunun nəinki onu qorumaq, istənilən hücum əməliyyatını həyata keçirməyə qadir olan Naxçıvanın bu uğurlarının davamına səs vermişdir. Bu, bütün muxtar respublika əhalisinin yekdil fikridir. Naxçıvanlılar deyir ki: *“Biz bütün problemləri həll olunan, hər bir sakininin hüquqlarının qorunduğu, hər kəsin qayğı ilə əhatə edildiyi nümunəvi bir regionda yaşayır və müasir Naxçıvanın QURUCUSUNA sonsuz minnətdarlığımızı, dərin inamımızı bildiririk”.*

Blokada şəraitində bu inkişafın səbəblərini Azərbaycan Prezidenti cənab İlham Əliyev belə izah edir: ***“Əsas məsələ Vətən sevgisidir. İqtisadi imkanlar böyük də ola bilər, o qədər böyük olmaya da bilər. Amma əgər Vətən sevgisi varsa, məhdud iqtisadi imkanlarla da çox iş görmək olar”.***

Müasir Naxçıvanı qarşıdakı dövrdə daha böyük uğurlar gözləyir. Ali Məclisin Sədri sessiyadakı çıxışında demişdir: ***“Qarşıdakı dövrdə də biz fəaliyyətimizi gücləndirməli, əhalinin yaşayış səviyyəsini daha da yaxşılaşdırmalı, yeni istehsal sahələrinin və bununla bərabər yeni iş yerlərinin yaradılmasını təmin etməli, sosial sahələrin inkişafına diqqəti artırmalıyıq”.***

Muxtar respublika rəhbəri çıxışını ölkə başçısı cənab İlham Əliyevin bu fikirləri ilə tamamlamışdır: ***“Biz irəliyə baxmalı, ölkəmizin uzunmüddətli, dayanıqlı və səmərəli inkişafını təmin etmək üçün çalışmalıyıq”.***

*Növbəti beş ilin hədəfi bəllidir. Naxçıvanın uzunmüddətli və dayanıqlı inkişafının təmin olunması. Naxçıvanlılar bu yolla gedərək daha böyük uğurlar qazanacaq, doğma Azərbaycanımızın daha güclü Naxçıvanını quracaqlar.*

**Tural SƏFƏROV**

## Gələn həftə ilin son əmək yarmarkalarına start veriləcək

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası işaxtaranların səmərəli məşğulluğunun təmin edilməsinə, peşə hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılmasına, işaxtaran şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə əlverişli şərait yaradıb.***

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, xidmət tərəfindən cari ilin əvvəlində muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə təhlillər aparılıb, müəssisə və təşkilatlarda mövcud olan boş iş yerlərinin hər ay toplanması təmin edilib, müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatın müəyyənləşdirilməsi məqsədilə rübdə bir dəfə olmaqla müvafiq müəssisələrdə sorğular keçirilib.

Ötən dövr ərzində məşğulluq xidməti orqanlarında qeydiyyatda olan 2463 nəfər peşə və ixtisasına uyğun işlə təmin olunub, sosial müdafiəyə xüsusi ehtiyacı olan 32 nəfər kvota yerlərinə göndərilib, 274 nəfər haqqıödənilən sosialyönümlü ictimai işlərə cəlb edilib. İşlə təmin olunanların 106 nəfəri məhdud fiziki imkanlı şəxs, 62 nəfəri hərbi xidmətdən yeni tərxis edilən, 1 nəfəri isə cəzaçəkmə müəssisəsindən azad olunandır.

Keçirilən əmək yarmarkalarında isə 694 nəfərə, Təhsil və Səhiyyə nazirlikləri ilə birgə təşkil olunan əmək yarmarkasında isə müvafiq olaraq 127 və 13 nəfərə öz peşə və ixtisaslarına uyğun işə göndəriş verilib.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil olunan kurslara 402 nəfər, o cümlədən sağlamlıq imkanları məhdud 103 nəfər, hərbi xidmətdən tərxis olunan 18 nəfər və cəzaçəkmə müəssisəsindən azad olunan 2 nəfər cəlb edilib.

Cari ilin 10 ayı ərzində məşğulluq xidməti orqanlarında işsizlik statusu alan olmayıb.

Məlumatda o da bildirilir ki, növbəti əmək yarmarkalarına noyabrın 24-də start veriləcək. Həmin gün tədbir Sədərək rayonunun Heydərabad Qəsəbə Mərkəzində təşkil olunacaq. Noyabrın 25-də Kəngərli Rayon Məşğulluq Mərkəzində bu bölgənin işaxtaran sakinlərinə boş iş yerləri təqdim ediləcək. Noyabrın 26-da keçiriləcək əmək yarmarkasının ünvanı Şahbuz şəhərindəki “Araz” kinoteatrının binası olacaq. Culfa rayonunun işaxtaran sakinləri bu dövlət qayğısından noyabr ayının 27-də yararlana biləcəklər. Dekabr ayının 1-də ordubadlılara, 2-də babəklilərə, 3-də isə şərurlulara boş iş yerləri təqdim olunacaq.

Naxçıvan şəhərində əmək yarmarkası dekabr ayının 4-də “Gənclik” Mərkəzində keçiriləcək.

**Xəbərlər şöbəsi**

# Tibbə dair iki yeni kitabın təqdimat mərasimi keçirilmişdir






*Noyabrın 19-da Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində "Farmakoqnoziya botanikanın əsasları ilə" və "Anatomiya, fiziologiya və patologiyanın əsasları" kitablarının təqdimat mərasimi keçirilmişdir.*

Səhiyyə naziri Niyazi Novruzov əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə inkişaf etdirilən quruculuq tədbirlərinin muxtar respublikamızda da əhalinin sağlamlığının qorunması, tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, bu sahənin maddi-texniki bazasının gücləndirilməsinə stimul verdiyini bildirmişdir. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 1 noyabr 2015-ci il tarixdə keçirilmiş seçkilər bir daha göstərdi ki, muxtar respublika əhalisi ümummilli lider Heydər Əliyev yolunun davam etdirilməsinə alternativ görmür. Bu da səbəbsiz deyil. Çünki son illər bu yolun uğurla davam etdirilməsi nəticəsində muxtar respublikada bütün sahələrdə, o cümlədən səhiyyə sistemində inkişaf və tərəqqiyə nail olunmuşdur. Səhiyyə sisteminin yenidən qurulması, müasir dünya standartlarına uyğunlaşdırılması bu xidmətin keyfiyyətcə daha da yaxşılaşdırılması, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması, sağlamlığa mənfi təsir edən faktorların aradan qaldırılması, ana və uşaqların, ahıl vətəndaşların sağlamlığının qorunması işində əsaslı dönüş yaratmışdır. Səhiyyə işçilərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün görülən işlər sırasında muxtar respublikada tibb elminə dair yeni kitabların nəşrinin mühüm əhəmiyyətini qeyd edən səhiyyə naziri təqdimatı keçirilən kitabların ali məktəblərin tibb fakültələrinin bakalavr və magistr pillələrində təhsil alan tələbələr, həmçinin praktik fəaliyyət göstərən bütün tibb işçiləri üçün faydalı olduğunu vurğulamış, müəllifləri təbrik etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov təqdimat mərasimində çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikada bütün sahələrdə olduğu kimi, elmin inkişafı sahəsində də mühüm işlər görülmüş, elm və təhsil müəssisələrinin maddi-texniki bazası yaxşılaşdırılmış, elektron kitabxanalar qurulmuş, elmi mühit formalaşmışdır. Naxçıvanın tarixi və abidələri, arxeologiya və etnoqrafiyası, ədəbi mühiti və mədəniyyəti, təbii sərvətləri və biomühiti ciddi tədqiqatların predmetinə çevrilmişdir. Aparılan elmi araşdırmaların ən son nailiyyətlərini əks etdirən kitab və monoqrafiyalar, ensiklopediyalar, konfrans materialları nəşr edilir. Müstəqillik illərinin bu nəşrləri XX əsrdə çap olunan nəşrlərdən çoxdur. Bununla yanaşı, bu nəşrlərin ictimaiyyətə təqdimatı da diqqətdə saxlanılır. Ötən müddət ərzində siyasi elmlər üzrə fəlsəfə doktoru Rza Talıbovun "Asiya ölkələri beynəlxalq münasibətlər sistemində" kitabının Bakı Dövlət Universitetində və Naxçıvan Dövlət Universitetində ictimaiyyətə təqdimatı olmuşdur. Bundan başqa, Ali Məclis Sədrinin qayğısı ilə nəşr olunan bir çox əsərlərin – "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri", ikicildlik "Naxçıvan Muxtar Respublikasının Qırmızı kitabı", "Naxçıvan tarixi" çoxcildliyinin I və II cildi, "Naxçıvan-Şərur el yallıları", "Tarixi mənbələrdə Nuh Peyğəmbər", ikicildlik "Naxçıvan ensiklopediyası", "Naxçıvan abidələri ensiklopediyası", üçcildlik "Naxçıvanın folklor antologiyası", "Naxçıvan teatrının salnaməsi", "Məhəmməd Tağı Sidqi: taleyi və sənəti" kitablarının da təqdimatı olmuşdur.

Vurğulanmışdır ki, bu gün "Anatomiya, fiziologiya və patologiyanın əsasları" və "Farmakoqnoziya botanikanın əsasları ilə" dərsliklərinin təqdimatı da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı əsasında keçirilir. Təqdimatına toplaşdığımız dərsliklər nəfis tərtibatı və elmi dəyəri ilə seçilir. Bu kitabların, demək olar ki, biri digərini tamamlayır. Belə ki, "Anatomiya, fiziologiya və patologiyanın əsasları" dərsliyi orqanizmin quruluşu, inkişafı və formasından, "Farmakoqnoziya botanikanın əsasları ilə" dərsliyi isə xəstəliklərin müalicəsindən bəhs edir. Müalicə üsullarının təbii dərman bitkiləri hesabına aparılması isə müəlliflərin uzunmüddətli tədqiqatlarının nəticəsi kimi kitabın dəyərini daha da artırır.

Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikasının biomüxtəlifliyi müstəqillik illərinə qədər sistemli tədqiq olunmamışdır. Müstəqillik illərində bu sahədə aparılan tədqiqatlar artırılmış, təbii sərvətlərin ehtiyatı, tətbiq sahələri araşdırılmış, ondan səmərəli istifadə yolları müəyyənləşdirilmişdir. Dərman bitkilərinin öyrənilməsi və istifadəsi aparılan tədqiqatlar içərisində öz aktuallığı ilə seçilir. Tədqiqatlar nəticəsində muxtar respublikada 800 növə yaxın dərman bitkisi müəyyənləşdirilmişdir. Bu istiqamətdə aparılan tədqiqatların nəticəsi olaraq 2015-ci ildə "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri" kitabı nəşr olunmuşdur. "Farmakoqnoziya botanikanın əsasları ilə" kitabı da bu istiqamətdə aparılan tədqiqatların davamıdır. Kitabda dərman bitkilərinin xarakteristikası, ekoloji şəraiti, yayılması, toplanılması, qurudulması, saxlanılması, kimyəvi və farmakoloji tərkibi ilə bağlı geniş məlumat verilmiş, dərman bitkilərinin xüsusiyyətləri ilə yanaşı, onların istifadə və qəbul qaydaları müəyyənləşdirilmişdir.

"Muxtar respublika ərazisində mövcud olan dərman bitkilərinin xüsusiyyətlərinin, xəstəliklərdə faydalılığının müəyyənləşdirilməsi elmdən təcrübə istiqamətində aparılan tədqiqatlar sırasındadır. Bu sahədə aparılan tədqiqatlar, əldə olunan uğurlu nəticələr onu deməyə əsas verir ki, muxtar respublikada dərman bitkilərini tədarük edəcək farmakoloji müəssisənin yaradılması üçün zəruri elmi baza artıq formalaşmışdır", – deyən Rəhman Məmmədov tədbir iştirakçılarının diqqətinə çatdırmışdır ki, hər iki kitab tibb təhsili alan tələbələr, müəllimlər, həkimlər, bioloqlar, təbiətşünaslar, xalq təbabəti ilə məşğul olan loğmanlar üçün faydalı mənbədir. "Farmakoqnoziya botanikanın əsasları ilə" kitabının elmi dəyəri nəzərə alınaraq elektron variantı hazırlanmış, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Naxçıvanşünaslıq" Mərkəzinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin, Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının və Naxçıvan Dövlət Universitetinin elektron kitabxanalarında yerləşdirilmişdir. Bu isə muxtar respublikadan kənarda yaşayan oxucuların da kitabdan yararlanmasına imkan verəcəkdir.

Rəhman Məmmədov "Anatomiya, fiziologiya və patologiyanın əsasları" və "Farmakoqnoziya botanikanın əsasları ilə" dərsliklərinin müəlliflərinə təşəkkürünü bildirmiş, onlara yeni yaradıcılıq uğurları arzulamışdır.

Sonra AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Bitki sistematikası şöbəsinin müdiri, biologiya üzrə elmlər doktoru, professor Əliyar İbrahimov "Farmakoqnoziya botanikanın əsasları ilə" kitabının elmi əhəmiyyəti", Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bəhruz Məmmədov "Farmakoqnoziya botanikanın əsasları ilə" və "Anatomiya, fiziologiya və patologiyanın əsasları" kitablarının tədris vəsaiti kimi əhəmiyyəti" mövzularında çıxış etmiş, Naxçıvan Tibb Kollecinin direktoru, tibb üzrə fəlsəfə doktoru İlhamə Mustafayeva hər iki kitabın elmi əhəmiyyəti, nəşri haqqında məlumat vermişdir.

Naxçıvan Tibb Kollecinin direktoru, tibb üzrə fəlsəfə doktoru İlhamə Mustafayeva, biologiya üzrə elmlər doktoru, professor Səyyarə İbadova, biologiya üzrə elmlər doktoru Ramiz Ələkbərov, biologiya üzrə elmlər doktoru Abbas İsmayılov, biologiya üzrə elmlər doktoru Hilal Qasımov, əczaçı, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Şəfiqə Qasımovanın "Farmakoqnoziya botanikanın əsasları ilə" və tibb üzrə fəlsəfə doktoru İlhamə Mustafayeva, Mehri Seydbəyli, Xəyalə Çələbinin "Anatomiya, fiziologiya və patologiyanın əsasları" adlı kitabları "Əcəmi" nəşriyyatında ofset çap üsulu ilə yüksək poliqrafik keyfiyyətlə çap olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı "Rəssamlar Parkının yaradılması haqqında" 2015-ci il 14 noyabr tarixli Sərəncam əsl bayram əhval-ruhiyyəsi yaradıb. Sərəncamla bağlı bir neçə rəssamla həmsöhbət olub təəssüratlarını öyrəndik.*

# Rəssamlar Parkı rəssamların yaradıcılıq məkanına çevriləcək

***Ülviyyə HƏMZƏYEVA – Azərbaycan Respublikasının Əməkdar rəssamı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri:*** – Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, rəssamlığın inkişafında da əsaslı dönüş yarandı. Buna əyani misal olaraq 2002-ci ildə ulu öndərin tövsiyəsi ilə Bəhruz Kəngərlinin xatirəsini əbədiləşdirmək məqsədilə Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyinin fəaliyyətə başlamasını göstərmək olar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu sahənin inkişafına xüsusi diqqət yetirir. 1998-ci ildə Rəssamlar Birliyinin sərgi salonunun əsaslı təmir edilməsi, 2000-ci ildə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatının Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyinə çevrilməsi, 2011-ci ilin iyun ayında Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin yeni inzibati binasının və Bəhruz Kəngərli adına Sərgi Salonunun rəssamların ixtiyarına verilməsi, Rəssamlar Birliyinin 40 illik yubileyinin keçirilməsi muxtar respublikada rəssamlıq sənətinə göstərilən qayğının təzahürüdür.

Muxtar respublikada yaşayıb-yaradan rəssamların əsərlərindən ibarət sərgilərin birində Ali Məclisin Sədri deyib: ***"Bu sahəyə ona görə diqqət göstərilir ki, Rəssamlar Birliyi muxtar respublikanın ictimai həyatında fəal iştirak etsin, yeni rəssamlar yetişdirilsin, Bəhruz Kəngərli ilə başlanan yol davam etdirilsin".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin növbəti sərəncamı biz rəssamlara əsl bayram əhval-ruhiyyəsi bəxş edib. Sərəncama əsasən, Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkının yaradılması və rəssamın heykəlinin ucaldılması Bəhruz Kəngərli irsinə göstərilən ehtiramın, muxtar respublikada rəssamlıq sənətinə verilən yüksək dəyərin göstəricisidir.

İnanıram ki, muxtar respublikada yaşayıb-yaradan rəssamlar bu parkın gələcəkdə Naxçıvanın tarixini və mədəniyyətini təbliğ edən mühüm bir yaradıcılıq məkanına çevrilməsi üçün bütün güclərini səfərbər edəcəklər.

Bütün bu işlərə və muxtar respublikada rəssamlığın inkişafına göstərilən yüksək dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə naxçıvanlı rəssamlar adından dərin minnətdarlığımı bildirirəm.

***Əli SƏFƏROV – Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı:*** – Bu günlərdə xoş bir xəbər eşitdik: görkəmli rəssam Bəhruz Kəngərlinin Naxçıvan şəhəri, İstiqlal küçəsi 52-də heykəli qoyulacaq və həmin ərazi Rəssamlar Parkı adlanacaqdır. Realist Azərbaycan rəssamlığının əsasını qoyan Bəhruz Kəngərlinin irsinə muxtar respublikada daim böyük diqqət və qayğı göstərilib, adının əbədiləşdirilməsi, yaradıcılığının tədqiqi və təbliği sahəsində bir sıra işlər görülübdür. Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi yaradılıb, görkəmli rəssamın 120 illik yubileyi geniş şəkildə qeyd olunub. Həmçinin Bəhruz Kəngərlinin əsərlərindən ibarət kitab-albomun hazırlanması realist rəssamın xatirəsinə böyük ehtiramdır.

Belə diqqət və qayğı olan yerdə rəssamlarımız da yüksək uğurlar qazanmağa çalışırlar. Bu gün naxçıvanlı rəssamların xoş sorağı müxtəlif xarici sərgi salonlarından gəlir. İnanırıq ki, Naxçıvan Muxtar Respublikasında yeni istifadəyə veriləcək yaraşıqlı park hər bir vətəndaşın istirahəti üçün ən gözəl məkanlardan biri olacaq, hər bir naxçıvanlının zövqünü oxşayacaq, əsl seyrəngaha çevriləcəkdir.

***Həbibə ALLAHVERDİYEVA – Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı:*** – Muxtar respublikada rəssamlığın və təsviri sənətin inkişafı sahəsində ardıcıl tədbirlər görülür. Gənc rəssamların yetişməsi, rəssamlıq sənətinin tədrisi üçün hərtərəfli şərait yaradılır, rəssamların yaradıcılıq imkanları artırılır, onlar müvafiq iş və emalatxana ilə təmin olunurlar. Həmçinin Azərbaycan boyakarlıq sənətinin klassik və müasir nümayəndələrinin albom-kataloqları hazırlanıb nəşr olunur. Rəssamlar Birliyinin rəsmi internet saytının yaradılması, birliyin gənclər bölməsinin təşkil edilməsi, muxtar respublikada iki dəfə "Naxçıvan – bəşəriyyətin beşiyi" adlı rəsm festivalının keçirilməsi, rəssamların fəxri adlarla, orden və medallarla təltif olunması, onların əl işlərinin satışının təşkil edilməsi bu sahəyə göstərilən diqqət və qayğının əyani sübutudur. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Müəllimlər İnstitutunda Təsviri incəsənət müəllimliyi ixtisaslarının açılması gənc rəssam nəslinin yetişməsi və orta məktəblərdə təsviri incəsənət dərslərinin tədrisinin daha yaxşı aparılması üçün göstərilən böyük təşəbbüsdür.

Yeni parkın yaradılması bu tədbirlərin davamıdır və muxtar respublikada fəaliyyət göstərən rəssamların qayğı ilə əhatə olunduğunun ifadəsidir.

**✍ Sara ƏZİMOVA**

# Müharibə veteranının 90 yaşı qeyd olunub

***Ordubad rayonunun Gənzə kəndində yaşayan müharibə veteranı Nuru Süleymanovun 90 yaşının tamam olması münasibətilə onunla görüş keçirilib.***

Tədbirdə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək yubilyarı 90 yaşı münasibətilə təbrik ediblər.

Qeyd olunub ki, muxtar respublikada 1941-1945-ci illər müharibəsi veteranlarının sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır. "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin qeyd olunması üzrə Tədbirlər Planı"na uyğun olaraq, müharibə veteranlarının yubileylərinin keçirilməsi onlara göstərilən hörmət və ehtiramın ifadəsidir. Müharibə veteranlarının sosial rifahının yüksəldilməsi istiqamətində davamlı tədbirlərin həyata keçirilməsi, onların minik avtomobilləri, həmçinin texniki-bərpa vasitələri və protez-ortopediya məmulatları ilə təmin olunmaları, sanatoriya və pansionatlara müalicəyə göndərilmələri, hər ay veteranlara sosial müavinətlə yanaşı, Prezident təqaüdünün ödənilməsi bu qəbildən olan insanlar tərəfindən yüksək dəyərləndirilir.

Nuru Süleymanov ona göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Sonda yubilyara hədiyyə təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Muzey bələdçiləri üçün seminar-ekskursiya

Dünən Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyində muxtar respublikanın bütün bölgələrində fəaliyyət göstərən muzey bələdçiləri üçün seminar-ekskursiya keçirilib.

Seminar-ekskursiyada Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının şöbə müdiri Həsən Kərimov çıxış edib. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 2015-ci il üçün iş planına əsasən, il ərzində muzey işçilərinin peşə hazırlığının yüksəldilməsinə həsr olunmuş tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Məqsəd rayonlarda fəaliyyət göstərən muzey bələdçilərinin bu seminarlarda iştirakını təmin etməklə onların fəaliyyətini stimullaşdırmaq, ekskursiya işinin təşkili ilə əlaqədar mövcud nöqsan və çatışmazlıqları aradan qaldırmaq, eyni zamanda muxtar respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərən muzeylər arasında qarşılıqlı əlaqələrin inkişafına köməklik göstərməkdən ibarətdir.

Qeyd olunub ki, muzeylərdə kadr işi sahəsində mövcud olan çatışmazlıqlar aradan qaldırılır. Vakant vəzifələrə ixtisaslı kadrlar seçilib yerləşdirilir.

Ali Məclis Sədrinin müvafiq sərəncamına əsasən, muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqənin qurulması sahəsində lazımi tədbirlər görülüb.

Sonra Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Vilayət Bağırov çıxış edərək seminar-ekskursiyaların bölgələrdə keçirilməsinin əhəmiyyətini qeyd edib.

Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinə bələdçinin təqdimatı ilə baxıldıqdan sonra bələdçilərin suallarına cavab verilib, seminar-ekskursiya iştirakçılarına metodik tövsiyələr paylanılıb.

## Ustad dərslərinin keçilməsi davam etdirilir

*Dünən Naxçıvan Dövlət Filarmoniyasında Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin tabeliyində olan uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin fortepiano ixtisası müəllimləri və şagirdləri üçün ustad dərsləri keçilmişdir.*

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Pərvin Həsənov çıxış edərək ustad dərslərinin keçilməsinin məqsəd və əhəmiyyətindən danışmışdır. Bildirilmişdir ki, ustad dərslərini muxtar respublikanın tanınmış müəllim və musiqiçilərinin aparmasında məqsəd gənc müəllim və şagirdlərə bu sahənin incəliklərini öyrətmək, müəllimlərin təcrübəsini artırmaq, şagirdlərə isə fortepiano ixtisası üzrə yaradıcılıq fəaliyyətinin və təhsilin yüksəldilməsinə metodik köməklik göstərməkdən ibarətdir. Muxtar respublikanın bir neçə uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbində də ustad dərsləri keçilmişdir.

Sonra Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Nərminə Qədimova və Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Rəna Cəfərova ustad dərsi keçmiş, fortepiano ixtisası üzrə dərs deyən müəllimlərə metodik tövsiyələrini vermiş, dünya və Azərbaycan bəstəkarlarının fortepiano üçün yazılmış əsərlərini ifa etmişlər.

Şagirdlərin ifasında da fortepiano əsərləri səsləndirilmişdir. Ustad dərsdə çıxış edən təcrübəli müəllimlər şagirdlərə məsləhətlər vermiş, onlara ifa olunan əsərlər haqqında maraqlı məlumatlar çatdırmışlar.

Ustad dərsinə Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri İmamqulu Əhmədov yekun vurmuş, başqa ixtisaslar üzrə də belə dərslərin təşkil olunacağını bildirmişdir.

**Əli RZAYEV**

## Əməyin mühafizəsi üzrə kurs təşkil olunub

***Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Əməyin mühafizəsi üzrə təlimatların əhəmiyyəti" mövzusunda kurs təşkil olunub. Kursun təşkilində əsas məqsəd ağır, zərərli və təhlükəli istehsalat müəssisələrinin əməyin mühafizəsi üzrə mütəxəssislərinin biliklərinin artırılmasıdır.***

Noyabrın 16-da başlanan kursa "Gəmiqaya Beton Məmulatları Kompleksi", "Gəmiqaya Yol, Su, Enerji", "Gəmiqaya Kərpic Kompleksi","Gəmiqaya Daş Məhsulları Kompleksi", "Cahan Beton Məmulatları Kompleksi", "Dizayn Beton Məmulatları Kompleksi" Məhdud Məsuliyyətli cəmiyyətlərinin, Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin beton və asfalt zavodlarının, "Naxavtoyol" Dövlət Şirkətinin asfalt zavodunun və "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin Qarabağlar və Qızılvəng daş karxanalarının, ümumilikdə, 10 mütəxəssisi cəlb edilib.

7 gün davam edəcək kursda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mütəxəssisləri tərəfindən "Əməyin mühafizəsi üzrə təlimatlar işçi sağlamlığının təminatıdır", "Əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarına dair təlimat jurnallarının hazırlanması", "Giriş, ilkin, təkrar, növbədənkənar təlimatların əməyin mühafizəsində rolu", "Hər bir işçinin öz peşəsinə uyğun olaraq təlimatlandırılması", "İş yerlərində işarəverici və xəbərdaredici lövhələrin asılması" və digər mövzular tədris olunacaq.

Yekunda kurs iştirakçılarının bu sahədə bilikləri yoxlanılacaq.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*İnsanların heç biri eyni biçimdə, bir ağılda, bir görünüşdə və bir səviyyədə yaradılmayıb: Tanrı insanı bənzərsiz və təkrarsız yaradıb. İnsanların bir qismi fiziki qüsurludur, sərbəst hərəkət imkanlarından məhrumdur. Lakin bu, o demək deyil ki, bu qəbildən olan insanlar bununla barışmalıdırlar. Onlar fiziki imkanlarının məhdud olmasına baxmayaraq, özlərinə uyğun peşə, sənət və məşğuliyyət növü tapırlar. Bunlardan biri də idmanla məşğul olmalarıdır.*

## Sağlamlıq imkanları məhdud insanların idmana cəlbi diqqət mərkəzindədir

Muxtar respublikada paralimpiya hərəkatı geniş vüsət alıb. Təqdirəlayiq haldır ki, bu gün idmanın inkişaf səviyyəsinə görə Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyası digər federasiyalardan heç də geri qalmır.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Paralimpiya Federasiyası mütəmadi olaraq tədbirlər, yarışlar, turnirlər keçirir. Belə ki, ilk olaraq muxtar respublikada sağlamlıq imkanları məhdud insanların idmana cəlb olunması üçün onlar federasiyanın nəzdində olan idman növləri ilə tanış ediliblər. İdman növləri barədə məlumatlandırılan sağlamlıq imkanları məhdud insanlarla söhbətlər aparılıb. Həmçinin onlar fərdi və ya kollektiv idman növlərindəki bacarıqlarını nümayiş etdiriblər. Federasiya və nazirlik sağlamlıq imkanları məhdud olan insanların cəmiyyətə inteqrasiya etməsi üçün reallaşdırdıqları layihələrin keyfiyyət və istiqamətini diqqət mərkəzində saxlayır. Ona nail olmağa çalışılır ki, keçirilən tədbirlər tədbir xatirinə olmasın, müsbət nəticə ilə yekunlaşsın.

Sağlamlıq imkanları məhdud olan insanlara muxtar respublikada qayğı yüksək səviyyədədir. Bu səbəbdəndir ki, hazırda muxtar respublikada onların idmanla məşğul olması, idman yarışlarında iştirak etməsi təmin olunur. Sağlamlıq imkanları məhdud olsa da, onlar cəmiyyətə inteqrasiya edərək onun yararlı bir üzvünə çevrilirlər.

Gənclər və İdman Nazirliyi və Paralimpiya Federasiyasının birgə təşkilatçılığı ilə muxtar respublikada 294 sağlamlıq imkanları məhdud olan insan idmana cəlb edilib. 10 idman növü – voleybol, qol-bol, yüngül atletika, ağırlıqqaldırma, qol gücü, dama, şahmat, mini-futbol və bədii gimnastika ilə məşğul olanların 123-ü sağlamlıq imkanları məhdud uşaqlardır. Ümumilikdə, bu qruplarla hazırda 36 məşqçi-müəllim məşğul olur.

Cari ilin ilk 10 ayında sağlamlıq imkanları məhdud olan idmançılar arasında bir sıra yarışlar təşkil edilib. Onlar arasında xalq uşaq oyunları xüsusi əhəmiyyət kəsb edir. Belə ki, həmin yarışda 40-a yaxın idmançı mübarizə aparıb. Bununla yanaşı, bu müddət ərzində tennis, darts (lövhəyə oxatma), şahmat, dama, qol-bol üzrə birinciliklər də təşkil olunub ki, burada da 100-dən artıq idmançı qüvvəsini sınayıb.

**✍ Ceyhun MƏMMƏDOV**

## Dəm qazı insan həyatı üçün təhlükədir

***Son vaxtlar muxtar respublikanın şəhər və rayonlarında qaz təsərrüfatında təhlükəsizlik qaydalarının tələblərinin pozulması səbəbindən əhali arasında dəm qazından zəhərlənmə halları baş verir. Müəyyən olunmuşdur ki, bu cür hadisələrin əksəriyyəti yaşayış sahələrində müxtəlif növ məişət, qaz cihazlarının, o cümlədən suqızdırıcılarının quraşdırılması və istismarı zamanı vətəndaşlar tərəfindən texniki və yanğın təhlükəsizliyi qaydalarının tələblərinə riayət edilməməsi səbəbindən yaranır.***

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin aidiyyəti qurumları tərəfindən aparılan reydlər zamanı məlum olmuşdur ki, havaların soyuması ilə əlaqədar bir çox hallarda vətəndaşlar tərəfindən yaşayış sahələrində belə müvafiq norma və qaydaların tələblərinə uyğun olmayan qaz avadanlıqlarından istifadə edilir ki, bu da yanğınların baş verməsinə, insanların dəm qazından zəhərlənməsinə gətirib çıxarır. Belə ki, bəzən yaşayış sahələrində vətəndaşlar tərəfindən qaz cihazları düzgün quraşdırılmır, onların istifadəsi aidiyyəti dövlət orqanları ilə əvvəlcədən razılaşdırılmır, cihazların istismarı zamanı müəyyən qayda pozuntularına, şlanq birləşmələrindən istifadə olunmasına yol verilir, yaşayış evlərində bir çox hallarda qeyri-standart qaz sobalarından və suqızdırıcılarından istifadə olunur, tüstü boruları əksər hallarda bunun üçün nəzərdə tutulmayan ventilyasiya kanallarına qoşulur, tüstü bacaları və boruları vaxtlı-vaxtında təmizlənmir, onların texniki vəziyyəti yoxlanılmır.

Statistika göstərir ki, dəm qazı ilə zəhərlənmə daha çox rast gələnən zəhərlənmələr siyahısında dördüncü yeri tutur. Havatəmizləyici bacalar və borularda dəm qazının çıxmasına maneçilik törədən nasazlıqlar yarandıqda insanlar bu qazla nəfəs almaq məcburiyyətində qalırlar. Bu da nəticə etibarilə dəm qazından zəhərlənmələrə səbəb olur. Kimyəvi adı karbon-monooksid (CO) olan dəm qazı təmiz halda gözə görünməyən, rəngsiz, iysiz, dadsız, havadan yüngül, suda pis həll olunan qazdır. Dəm qazı natamam yanma məhsulu olub, güclü zəhərləyici xassəyə malikdir. Bu qaz üzvi maddələrin, o cümlədən təbii qazın, neft məhsullarının və odun yanacağının natamam yanması nəticəsində əmələ gəlir. Çünki yanma tam getməyəndə dəm qazı karbon qazına çevrilə bilmir. Normal yanma zamanı isə dəm qazı tam yanaraq karbon-4 oksidə çevrilərək tüstü boruları vasitəsilə xaric olunur.

Dəm qazı ilə zəhərlənmənin səbəbləri kimi hamam və vanna otaqlarında nəfəsliklərin olmaması, suqızdırıcıların hamam və vanna otaqlarında quraşdırılması, soba ilə qızdırıcı sistemlərdə texniki təhlükəsizlik qaydalarının pozulması, standarta uyğun olmayan və kustar üsulla hazırlanmış qaz sobalarından, suqızdırıcılarından istifadə edilməsini göstərmək olar.

Dəm qazı orqanizmə, əsasən, nəfəsalma zamanı ağciyərlər vasitəsilə daxil olur. Orqanizmə daxil olan dəm qazı hemoqlobinlə birləşərək karboksihemoqlobin əmələ gətirir. İnsanlar yüksək dəm qazı olan mühitdə çox qaldıqda zəhərlənmə daha güclü, ölüm isə bir o qədər sürətli olur. Dəm qazından zəhərlənmə hallarının yuxarıda göstərilən misallarla yanaşı, eyni zamanda avtomobillərdə də baş verməsi mümkündür. Belə ki, avtomobilin qarajda 10 dəqiqə işləməsi şəraitində nəfəs alan adamın qanında karbon-monooksidin miqdarı ölümcül həddə çata bilər. Havada dəm qazının miqdarı 0,08 faiz olduqda başağrısı, başgicəllənmə və boğulma başlayır. Dəm qazının miqdarı nəfəs aldığımız havada 0,32 faiz olduqda 30 dəqiqə ərzində, 1,2 faiz olduqda isə 2-3 dəqiqə ərzində (2-3 nəfəs almadan sonra) ölümlə nəticələnən bədbəxt hadisə baş verir. Zəhərlənmə zamanı ölümün səbəbi isə tənəffüs mərkəzinin iflici nəticəsində ürəyin dayanmasıdır. Havası karbon oksidi ilə zəngin olan otaqda qaldıqda zəhərlənən insanda ürəkbulanması, ümumi yorğunluq, yuxuya meyillilik və təngnəfəslik müşahidə olunur və dəri solğunlaşır. Əgər həmin insan dəm qazı ilə nəfəs almağa davam edərsə, onun tənəffüsü çətinləşir, qıcolmalar baş verir. Tənəffüs mərkəzinin iflic olması nəticəsində nəfəsalma dayanır.

Əgər dəm qazından zəhərlənmə halları baş veribsə, ilk olaraq zərərçəkəni dərhal təmiz havaya çıxarmaq və kürəyi üstə, kip bağlanan paltarda uzatmaq lazımdır. Zərərçəkənin bütün bədəni aktiv hərəkətlərlə ovuşdurulmalı, başına və sinəsinə soyuq kompres qoyulmalıdır. Zərərçəkmişin huşu özündədirsə, ona çay içirmək məsləhətdir, əgər huşunu itiribsə, onun burnuna naşatır spirtində isladılmış pambıq yaxınlaşdırılır. Zərərçəkmişin tənəffüsü dayanıbsa, ona mütləq süni nəfəs vermək və təcili tibbi yardım çağırmaq lazımdır. Belə hadisələrin baş verməməsi üçün müvafiq təhlükəsizlik norma və qaydalarının tələblərini bilməli, onlara ciddi riayət etməliyik.

Narahatçılığa səbəb olan amillərdən biri də vətəndaşlar tərəfindən yaşayış sahələrində kustar qaydada hazırlanmış qeyri-standart qaz sobalarından və suqızdırıcılarından istifadə olunmasıdır. Buna görə də satış məntəqələrindən, əsasən, sənaye üsulu ilə istehsal edilmiş qaz cihazlarını əldə etmək məsləhət görülür. Qeyri-standart qaz cihazlarından istifadə edilməsinə, ümumiyyətlə, yol verilməməlidir. Cihaz quraşdırıldıqdan sonra onun istifadə qaydaları ilə tanış olmaq lazımdır. Çünki artıq qeyd olunduğu kimi, partlayış, yanğın və dəm qazı ilə zəhərlənmə kimi qəza hadisələrinin əksəriyyəti bu qaydaları bilməməkdən və ya onlara riayət edilməməsi səbəbindən baş verir. Bunun üçün cihazın istismarı qaydaları, avtomatik təhlükəsizlik qurğusu ilə təchiz olunub-olunmaması, tüstü borusunun düzgün quraşdırılması, ən vacibi isə hansı şəraitdə normal rejimdə işləməsi məsələlərini dəqiq bilmək və yadda saxlamaq lazımdır.

Qeyd olunanlarla bağlı mövcud problemlərin həlli istiqamətində əhali bir daha diqqətli olmalı, təhlükəsizlik məsələlərində fəal iştirak etməli və belə hallarla üzləşdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin "**112**" qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin "**101**" xidmətinə məlumat verilməlidir.

***Vətəndaşlara bir daha tövsiyə edirik ki, qaz sobalarından və qızdırıcı cihazlardan istifadə edərkən təhlükəsizlik qaydalarına əməl olunsun. Evdən çıxarkən qızdırıcı sobaları, qaz və elektrik cihazlarını yanılı vəziyyətdə nəzarətsiz qoymayın, onları söndürməyi unutmayın.***

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***


ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 880